Proqram çərçivəsində təhsil ingilis dilində aparılacaqdır.

Proqramda iştirak etmək arzusunda olan namizədlər üçün müəyyən edilmiş tələblər aşağıdakılardır:

- *namizəd ali təhsilli olmalı;*
- *ingilis dilini yüksək səviyyədə bilməli;*
- *tibbi cəhətdən sağlam olmalı;*
- *yaş həddi 35-dən aşağı olmalı;*
- *namizəd əvvəllər KOICA tərəfindən həyata keçirilmiş proqramlarda iştirak etməməlidir*.

Proqram çərçivəsində bütün xərclər KOICA tərəfindən ödənilir.

Proqramda iştirak etmək arzusunda olan namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *KOICA ərizə forması;*
- *Ajou Universitetinin ərizə forması;*
- *əsaslandırma (motivasiya) məktubu;*
- *iki ədəd tövsiyə məktubu;*
- *diplom və diplom əlavəsinin notarial qaydada təsdiq edilmiş surəti;*
- *TOEFL və ya IELTS sertifikatı;;*
- *xarici pasportun surəti;*
- *3 x 4 ölçüdə iki ədəd fotoşəkil;*
- *CV*.

QEYD: ingilis dilində olmayan bütün sənədlər bu dilə tərcümə olunmalı və notarial qaydada təsdiq edilməlidir.

Məlumatları və ərizə formalarını aşağıdakı linklərdən yükləyə bilərsiniz:

Program information

KOICA application form

Application form for trade applicants

Application form for business applicants

Detailed curriculum

Reccomendation form

Təqaüd proqramında iştirak etmək arzusunda olan namizədlər sənədlərini 25 noyabr 2009-cu il tarixinə qədər Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinə təqdim etməlidirlər (Könül Məhərrəmova - tel: 496 33 11; dax: 251).